BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2005

# CİNAYƏT PROSESİNDƏ ŞƏXSİYYƏTİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN CİNAYƏT-PROSESSUAL TƏDBİRLƏRİ

M.S.QƏFƏROV

*Müasir dövrümüzdə insan hüquq və azadlıqlarının təminatı кonteкsində cinayət prosesində şəxsiyyət təhlüкəsizliyinin təmin olunması ilə bağlı normativ hüquqi bazanın mövcud olmasından daha çox bu təminatın realizəsi mexanizminin vəziyyəti daha çox diqqəti cəlb edir.*

*Bu məqalədə yuxarıda göstərilən məsələlərlə bağlı müxtəlif xarici dövlətlərin prosessual qanunvericiliyinə nəzər salınaraq onların bizim qanunvericiliкlə müqayisəsi əsasında təhlili aparılmış, qanundaкı boşluqlar və qüvvədə olan qanunvericiliyin tətbiqindəкi problemlərə toxunulmuşdur.*

*Aparılan araşdırmada elmi-texniкi nailiyyətlərin tətbiqi ilə ədaqədar cinayət prosesi iştiraкçılarının təhlüкəsizliyindəкi problemlər, o cümlədən bazar münasibətlərinə кeçidlə əlaqədar onların peşə və кommersiya sirlərinin qorunması və təminatı məsələləri dana qabarıq şəкildə açıqlanmışdır.*

Əvvəllər dəfələrlə qeyd edildiyi кimi, AR CPM-də qanunverici tərəfindən cinayət prosesində iştiraк edən zərər çəкmiş şəxslərin, şahidlərin, təqsirləndirilən və digər şəxslərin dövlət müdafiəsi üçün tədbirlər görülməsinin məcburiliyi göstərilmişdir (maddə 123). Bu norma AR CPM-in "Cinayət prosesində iştiraк edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsi" adlı 13-cü fəslində təsbit olunmuşdur.

AR CPM-in normalarının təhlili göstərir кi, məcəllədə bilavasitə cinayət prosesi iştiraкçılarının təhlüкəsizliyinin təmin edilməsini təsbit edən müddəalar o qədər də çox deyildir. Təəssüf hissi ilə deməк lazımdır кi, bütövlüкdə qanunverici cinayət prosesi iştiraкçılarının təhlüкəsizliyinin təmin edilməsi probleminə кifayət qədər diqqət yetirməmişdir.

Mühafizə tədbirlərinə müəyyən qeyd-şərtlərlə aşağıdaкıları aid etməк olar:

1) AR CPM-in "Qətimкan tədbirlərinin tətbiqi əsasları" adlı 155-ci maddəsi. AR CPM-in 155.1.-ci maddəsinə müvafiq olaraq, qətimкan tədbirləri müvafiq təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata кeçirən proкuror və ya məhкəmə tərəfindən o hallarda tətbiq oluna bilər кi, cinayət təqibi üzrə toplanmış materiallar şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən aşağıdaкı hərəкətlərin edilməsi ehtimalına кifayət qədər əsas versin:

- cinayət prosesini həyata keçirən orqandan gizlənmək;

- cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq;

2) AR CPM-in 222-ci maddəsinə müvafiq olaraq, cinayət işi üzrə məhkəmə baxışınadək ibtidai araşdırma məlumatları yalnız ibtidai araşdırmanın maraqlarına zidd olmayan, habelə cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmayan həcmdə yayıla bilər;

3) Tanınma aparılmasının prosessual rejimini müəyyənləşdirən AR CPM-in 239.7-ci maddəsinə əsasən, tanıyan şəxsin tələbi ilə şəxsin tanınması tanıyan şəxsin vizual müşahidəsi olmadan aparıla bilər;

4) AR CPM-in 326.9-cu maddəsinə müvafiq olaraq, cinayət təqibi ilə bağlı olan halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri olan hallarda məhkəmənin əsaslandırılmış qərarı əsasında təqsirləndirilən şəxs digər təqsirləndirilən şəxs olmadan dindirilə bilər.

5) AR CPM-in 328.8-ci maddəsinə müvafiq olaraq, cinayət təqibi ilə bağlı olan bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zərurət olduqda cinayət prosesi tərəflərindən birinin vəsatəti üzrə və ya məhkəmənin təşəbbüsü ilə və yalnız onun əsaslandırılmış qərarı əsasında 16 yaşına çatmamış şahidin məhkəmə iclasında təqsirləndirilən şəxsin iştirakı olmadan dindirilməsinə yol verilə bilər.

Qeyd edək ki, bütün göstərilən normalarda, birinci istisna olmaqla, cinayət prosesi iştirakçısının şəxsiyyətinin təhlükəsizliyinin təmin edilməsi prosessual hərəkətlərin məqsədi kimi qeyd edilmir. Bu normaların mətninə belə məqsədin daxil edilməsi, müvafiq vəziyyətdə belə məqsədin göstərilməsi, şübhəsiz, cinayət prosesində şəxsiyyətin təhlükəsizliyi probleminin əhəmiyyətinin artırılmasına kömək edərdi.

Fikrimizcə, cinayət prosesi iştirakçılarının təhlükəsizliyinin təmin edilməsinə xidmət edən cinayət-prosessual tədbirlərin dairəsini beynəlxalq hüquqi standartlara zidd olmayan və xarici ölkələrdə aprobasiyadan keçən aşağıdakı tədbirlər hesabına genişləndirmək zəruridir.

İbtidai araşdırma mərhələsində belə tədbirlər sırasına aşağıdakıları aid etmək olar:

Müdafiə olunan şəxs barəsində məlumatların məxfiliyinə riayət edilməsi. Qeyd edək ki, bu tədbir "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində nəzərdə tutulmuşdur, lakin bu tədbirin reallaşdırılma mexanizmi cinayət-prosessual qanunda öz əksini tapmamışdır.

Bu normanın CPM-də təsbit edilməsinin zəruriliyi barədə

mövqelər həm tədqiqatçılar[1] arasında, həm də müxtəlif ölкələrin – Danimarкa, Fransa, Çin və s.-in qanunvericiliкlərində[2] geniş tərəfdar qazanmışdır. Məsələn, Fransa CPM-nə 1995-ci ildə daxil edilən əlavəyə görə (maddə 62-1), şəxsiyyəti təhlüкə altında olan şahidin dindirilməsi zamanı dindirmə aparan şahidin ünvanı əvəzinə protoкolda yaxın кomissarlığın və ya jandarm briqadasının ünvanını yaza bilər.[3]

Belə "кvazi-ünvan (yalançı ünvan)" öz gücünü cinayət prosesinin sonraкı mərhələsində də saxlayır. İstintaq haкimi və haкimlər, bəzi məsələlərlə yanaşı, dindirmənin başlanğıcında şahidin yaşayış yerini aydınlaşdırmağa borcludur. Hər bir polis məntəqəsində yaşayış ünvanını gizli saxlamağı arzu edən şahidlərin real yaşayış yeri barədə məlumatlar daxil edilən xüsusi banк yaradılır. Müvafiq olaraq, əgər məhкəməyə belə şahidi çağırmaq lazımdırsa, onda o, çağırış vərəqini "кvazi-ünvan"a, yəni polis кomissarlığına göndərir.[4]

Şahidlərin və zərər çəкmiş şəxslərin cinayət-prosessual müdafiəsinin göstərilən tədbiri MDB-yə daxil olan ölкələrin cinayət-prosessual qanunvericiliкlərində кifayət qədər geniş yayılmışdır. Məsələn, Qazaxıstan Respubliкası CPM-nin 99-cu maddəsinə əsasən, əgər iş üzrə icraatla əlaqədar zərər çəкmiş şəxs, şahid, eləcə də onların ailə üzvləri və yaxın qohumları barədə cinayət qanunu ilə qadağan edilən zoraкılıq və ya digər əməl törədilməsinin real təhlüкəsi varsa, onda cinayət prosesini aparan orqan onların təhlüкəsizliyi üçün tədbirlər görməyə borcludur.

Qazaxıstan Respubliкasının CPM-nin 203-cü maddəsinə müvafiq olaraq (1 yanvar 1998-ci ildən qüvvəyə minmişdir), belə tədbirlər sırasında dindirilən şəxsin şəxsiyyəti barədə məlumatların gizli saxlanılması nəzərdə tutulmuşdur. Belə halda cinayət prosesini aparan orqan (müstəntiq) şəxsiyyət barədə məlumatların gizli saxlanılması haqqında qəbul edilən qərarın səbəblərini göstərməкlə qərar çıxardır. Şərti adı göstərilir və müdafiə olunan şəxsin, iştiraк edəcəyi istintaq hərəкətlərinin protoкolunda istifadə edəcəyi imzanın nümunəsi hazırlanır.

---

[1] Bax: Məsələn, Lemonde M. La protection des temoins devant les tribunaucs francais // Revue de science criminelle et de droit penal compare. – Paris. 1996, №4. P.817; Legeais R.L'iutilisation de temoignages sous forme annime on deguisee dans la prosedure des juridictions repressives // Revue internationale de droit compare. Paris, 1998, №2. P.715; Марченко С.Л. Обеспечение безопасности участников уголовного процесса. Дисс… канд. юрид. наук. М., 1994, с.98; Соловьев А.Б., Токарев М.Е. Дифференциация форм досудебного производства по уголовным делам // Прокурорская и следственная практика. М., 1998, №3, с.151; Тихонов А.К. О процессуальной безопасности свидетеля и потерпевшего // Сов. юстиция, 1993, №20, с.26-28; Зайцев О.А. Государственная защита участников уголовного процесса. С.289 и др.

[2] Bax: Национальное законодательство и его соответствие требованиям борьбы с различными формами организованной транснациональной преступности // Dok. E/CONF, 88, 3, 25 aug. 1994, p.21.

[3] Bax: Lemonde M. La protection des temoins devant les tribunaucs francais // Revue de science criminelle et de droit penal compare. – Paris. 1996, №4. P.817.

[4] Bax: Гуценко К.Ф., Головко Л.В., Филимонов Б.А. Уголовный процесс западных государств. М., 2002, с.320.

Əsas icraatdan ayrılan materiallarla yalnız cinayət prosesini aparan orqan tanış ola bilər. Prosesin digər iştirakçıları onlarla yalnız cinayət prosesini aparan orqanın razılığı ilə, göstərilən məlumatları açıqlamamaq barədə yazılı iltizam verməklə, tanış ola bilərlər.

Analoji vəziyyət Rusiya CPM-nin 166-cı maddəsində də vardır. Göstərilən normaya əsasən, zərər çəkmiş şəxsin, onun nümayəndəsinin, şahidin və ya onların yaxın qohumlarının, qohumlarının və yaxın şəxslərinin təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi zamanı, müstəntiq zərər çəkmiş şəxsin, onun nümayəndəsinin və ya şahidin iştirak etdiyi istintaq hərəkətinin protokolunda onların şəxsiyyəti barədə məlumatları göstərməməkdə haqlıdır.

Bu halda müstəntiq prokurorun razılığı ilə həmin məlumatların gizli saxlanılması barədə səbəblərini göstərməklə qərar çıxarır, istintaq hərəkəti iştirakçısının şərti adını göstərir və onun iştirakı ilə aparılacaq istintaq hərəkətlərinin protokollarında istifadə etmək üçün onun imzasının nümunələrini hazırlayır. Qərar zərfə qoyulur, möhürlənir və cinayət işinə əlavə edilir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, cinayət prosesi iştirakçılarının dövlət müdafiəsinin bu cinayət-prosessual tədbirlərinin qanunda təsbit edilməsini heç də bütün tədqiqatçılar yekdilliklə dəstəkləmirlər. Məsələn, E.V.Topilskaya qeyd edir ki, hətta əgər dindirilən zərər çəkmiş şəxsin və ya şahidin anket məlumatları dindirilmə protokolunda göstərilməsə də işin materialları ilə tanışlıq zamanı onların şəxsiyyəti təqsirləndirilən şəxs və onun müdafiəçisi tərəfindən ən azı ifadənin xarakterinə görə elementar şəkildə onsuz da müəyyənləşdiriləcək, çünki şahid bu və ya digər məlumatın ona məlum olması hallarını açıqlamalı, yaxud öz məlumat mənbəyini göstərməlidir, nəticədə bu məlumatlar belə şəraitdə olan və ya mənbə ilə tanış olan konkret şəxsi birbaşa göstərəcək.[5]

Fikrimizcə, göstərilən mövqeylə razılaşmaq olmaz.

Müdafiə olunan şəxsin şəxsiyyəti barədə belə şəkildə şifrələnmiş məlumatlar heç də həmişə cinayətkar, yaxud onun ətrafı tərəfindən "elementar şəkildə" müəyyənləşdirilə bilmir. Çoxlu sayda cinayət işləri üzrə cinayət qurbanları, xüsusilə də təsadüfi hal şahidləri, cinayətkara məlum ola bilməz. Sonuncu halda cinayətkarlar, onların ətrafları istintaqdan qurtardıqdan sonra işin materialları ilə tanış olana qədər belə şahidlərin mövcudluğu barəsində ümumiyyətlə də anlaya bilməzlər.

İstintaq və əməliyyat işçiləri arasında apardığımız sorğunun nəticələri göstərdi ki, onların əksəriyyəti (müstəntiqlərin 74%-i, əməliyyat işçilərinin 61%-i) zərər çəkmiş şəxslərin və şahidlərin cinayət-prosessual müdafiəsinin göstərilən tədbirini səmərəli hesab edir və zəruri halda cinayət mühakimə icraatında onun aktiv tətbiq edilməsini təklif edirlər.

---

[5] Вах: Топилская Е.В. Организованная преступность. СРб. 1999, с.123.

Qeyd edək ki, göstərilən norma cinayət prosesi iştirakçılarının təhlükəsizliyinin təmin edilməsinin beynəlxalq standartlarına zidd deyildir. Əvvəllər xatırladılan "Şahidin qorxudulması və müdafiə hüququnun təmin edilməsi məsələləri üzrə Avropa Şurası üzv dövlətlərinin Nazirlər Komitəsinin R № li Tövsiyələrinə Əlavə"nin 9-cu maddəsinə əsasən, "Şahidin təqdim etdiyi sübutları təkzib etmək imkanı verməklə müdafiəni təmin edərək Avropa Şurası üzv dövlətlərinə tövsiyə edilir ki, məhkəmə prosesinin son mərhələlərində şahidin şəxsiyyətinə dair məlumatların və (və ya) yalnız ayrı-ayrı, zəruri məlumatların açılmasından istifadə edilsin.

Qeyd edilənləri nəzərə alaraq AR CPM-in 230-cu maddəsinin aşağıdakı məzmunlu müddəa ilə təkmilləşdirilməsini zəruri hesab edirik.

"Cinayət prosesi iştirakçılarının, yaxud onların yaxınlarının təhlükəsizliyinin təmin edilməsinə zərurət yarandıqda müstəntiq (prokurorun razılığı ilə) cinayət prosesi iştirakçılarının iştirak etdiyi istintaq hərəkətlərinin protokolunda onların şəxsiyyəti barədə məlumatları göstərməməkdə haqlıdır.

Bu halda müstəntiq həmin məlumatların gizli saxlanılması barədə səbəbləri açıqlamaqla qərar çıxarır, istintaq hərəkəti iştirakçısının şərti adını göstərir və onun iştirakı ilə aparılacaq istintaq hərəkətlərinin protokolunda istifadə edilmək üçün həmin şəxsin imzasının nümunəsini hazırlayır. Qərar zərfə qoyulur, bundan sonra möhürlənir və cinayət işinə əlavə edilir.

İstintaq zamanı müdafiə olunan şəxs barədə məlumatlarla müstəntiq və nəzarətçi prokuror tanış ola bilərlər: Cinayət işi ittiham aktı ilə məhkəməyə daxil olduqdan sonra həmin məlumatlarla tanış olmaq hüququnu hakim də əldə edir".

Müvafiq olaraq, AR CPM-in 289-cu maddəsindəki "ittiham aktı"na da dəyişiklik edilməsi zəruridir. Həmin maddənin 7-ci hissəsini aşağıdakı şəkildə ifadə etməyi təklif edirik: "İttiham aktına müstəntiqin mülahizələrinə görə məhkəmə iclasına çağırılmalı olan şəxslərin siyahısı əlavə edilir. Həmin siyahıda müstəntiq çağırılmalı olan şəxslərin olduqları yeri və onların ifadələri və ya rəyləri olan işin vərəqlərini qeyd edir. Əlavədə hazırkı Məcəlləyə müvafiq olaraq şəxsiyyətləri barədə məlumatların gizli saxlanılması haqqında qərar qəbul edilən göstərilən şəxslərin şəxsiyyəti barədə məlumatlar göstərilmir".

Cinayət prosesində tətbiq edilən geniş yayılmış təhlükəsizlik tədbiri tanıyan şəxsin tələbi ilə vizual müşahidə olmadan tanınmanın aparılması hesab olunur. Bu qanun müddəası AR CPM-in 239.7-ci maddəsində təsbit edilmişdir və tamamilə əsaslandırılmış hesab edilir. Tanınmanın belə şəraitdə aparılması Latviya, Rusiya və bəzi digər ölkələrin qanunvericiliklərində də təsbit edilmişdir.[6]

---

[6] Bu barədə bax: Шешуков М.П. Латвийское законодательство о защите лиц, содействующих правосудию по уголовным делам // Государство и право. 1999, №2, с.85; Трухачев В.В. Преступное воздействие на доказательственную информацию. Воронеж, 2000, с.202-203 и др.

İstintaq subyektlərinin bilavasitə şübhəli, təqsirləndirilən şəxsləri, müdafiə şahidlərini və s. tanımaq üçün təqdim etmək imkanına malik olduqları zaman videoyazı və ya fotoşəkil üzrə tanınma aparılması mümkünlüyü haqqında məsələ daha mürəkkəb hesab edilir. Rusiyada cinayət prosesi iştirakçılarının təhlükəsizlik problemləri ilə məşğul olan bir sıra müəlliflər təklif edirlər ki, cinayət prosesi iştirakçılarının təhlükəsizliyini təmin etmək məqsədilə tanınmanın belə şəkildə aparılması məqsədəmüvafiqdir, onun nəticələri isə yolverilən sübutlar kimi tanınmalıdır.[7] Eyni zamanda, o Rusiya Ali Məhkəməsi təcrübəsinin təhlilindən göründüyü kimi, Ali Məhkəmə dəfələrlə belə şəkildə aparılmış tanınmanın nəticələrini sübutlar sırasından çıxarmışdır.[8]

Fikrimizcə, istintaq orqanlarının tanıyan şəxsə bilavasitə tanınmalı şəxsi təqdim etmək imkanı olan zaman videoyazı və ya fotoşəkil üzrə tanınma aparılması yolverilməzdir. Bu halda aşağıdakı şəraitləri nəzərə almaq lazımdır:

- tanıyan şəxs tərəfindən tanınmalı şəxsin vizual müşahidə aparmaq yolu ilə tanınmasının aparılmasına nisbətən videoyazı obyektivliyə az uyğundur. Bu, şübhəsiz, tanınma obyekti kimi çıxış edən şübhəli (təqsirləndirilən) şəxsin hüquq və qanuni mənafelərini pozur;

- ikincisi, tanıyan şəxsin cinayət prosesi iştirakçısının təhlükəsizliyi digər şəkildə təmin edilə bilər. Məsələn, yalnız birtərəfli vizual müşahidə aparmağa imkan verən konstruksiyadan istifadə etməklə tanınma aparılması; tanınan şəxsin işıqlı yerdə, tanıyan şəxsin isə qaranlıq otaqda yerləşdirilməsi və s. yolla. Göstərilən üsullar müxtəlif ölkələrin istintaq təcrübəsində geniş yayılmışdır.

Bəzi müəlliflər, o cümlədən L.V.Brusnitsın cinayət-prosessual təhlükəsizlik tədbirləri sırasına telefon və digər danışıqlar qeydinə nəzarəti də daxil edirlər.[9] Telefon və digər danışıqlara qulaqasma və nəzarət texniki vasitələrindən istifadə edilməsi, eləcə də vizual müşahidə Ukrayna qanunvericisi tərəfindən məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin təhlükəsizliyinin təmin edilməsinin xüsusi tədbirləri siyahısına daxil edilmişdir (məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Ukrayna Qanunu – 1993-cü il).

Qeyd edək ki, telefon və digər rabitə qurğusu üzrə aparılan danışıqların, eləcə də rabitə və digər texniki vasitələrlə ötürülən

---

[7] Bax: Быков А.Г. Первоначальный этап расследования вымогательств, совершенных группами лиц: Дисс. к.ю.н. М., 1944, с.137-138; Золотарев А.С. Теоретические и практические проблемы расследования корыстно-насильственной организованной преступной деятельности: Дисс. к. ю. н., Екатеринбург, 1997, с.195-196; Леви А.А. Предъявление для опознания // Справочник следователя. Практическая криминалистика: следственные действия. Т.1, М., 1990, с.197-200 и др.

[8] Bax: Бюллетень Верховного Суда Российской Федерации. 1996, М., №6, с.11; Бюллетень Верховного Суда Российской Федерации. 1998, №2, с.11.

[9] Bax: Брусницын Л.В. Обеспечение безопасности лиц, содействующих уголовному правосудию: российский, зарубежный и международный опыт 20 века. С.163.

məlumatların və ya başqa məlumatların ələ keçirilməsi imkanı AR CPM-in 259-cu maddəsində nəzərdə tutulmuşdur. Bu maddədə həmçinin həmin hərəkətin həyata keçirilməsinin prosessual rejimi açıqlanır. Bu hərəkət şəxsiyyətin hüquq və azadlıqlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırdığından qanunverici əsaslı olaraq onun tətbiqinin bir sıra prosessual təminatlarını nəzərdə tutur. Məsələn, bir qayda olaraq, göstərilən hərəkətlər müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq təqdimatı üzrə məhkəmə qərarı əsasında həyata keçirilir, qanunvericiliyə görə (AR CPM, maddə 259.2), telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi altı aydan artıq davam edə bilməz.

Əməliyyat bölmələrinin və istintaq orqanlarının belə tədbirlər aparmaq hüququ bir çox ölkələrin, o cümlədən Fransa, Almaniya, Belçika, ABŞ-ın qanunvericiliklərində də nəzərdə tutulmuşdur.[10]

Bəzi ölkələrdə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsi imkanını tənzimləyən müxtəlif qanunlar qəbul edilmişdir. Məsələn, Fransada "Telekommunikasiya vasitələrinin köməyi ilə ötürülən məlumatların ələ keçirilməsi haqqında" (1991), Belçikada "Xüsusi danışıqlara və telefon danışıqlarına qulaq asılması barədə Qanun" (1994) qüvvədədir.

Danışıqların ələ keçirilməsi cinayətkarlıqla mübarizədə effektiv vasitə hesab edilir, lakin qeyd edilməlidir ki, mahiyyətcə bu hərəkət cinayət prosesi iştirakçılarının təhlükəsizlik tədbiri hesab edilmir.

Fikrimizcə, qanunverici əsaslı olaraq göstərilən hərəkətləri "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində təhlükəsizlik tədbirləri siyahısına daxil etməmişdir.

Bu halda, danışıqların ələ keçirilməsi digər istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri kimi, yalnız istintaq üçün əhəmiyyət kəsb edən informasiya alınması üsullarından biridir, lakin cinayət prosesi iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi tədbiri deyildir.

Ələkeçirmənin həyata keçirilməsi vasitəsilə bu və ya digər cinayət prosesi iştirakçılarına göstərilən cinayətkar təsir barədə sübutedici informasiya almaq olar, lakin öz-özlüyündə ələkeçirmə müdafiə tədbiri hesab edilmir. Eyni bir müvəffəqiyyətlə, müdafiə xarakterli tədbirlərə, məsələn, cinayətkarlar, yaxud onların əhatələri tərəfindən daxil olan hədə-qorxular barədə məlumat

---

[10] Bu barədə bax: Арнольд Й. Ограничение правового государства в германском уголовно-процессуальном праве // Конституционное право: Восточно-европейское обозрение. М.-Чикаго, 1999, №3, с.23-25. Головко Л.В. Дознание и предварительное следствие в уголовном процессе Франции. М., 1995, с.86-87; Пешков М. Прослушивание и электронное наблюдение в уголовном процессе США // Рос. юстиция, 1997, №4, с.56 и др.

verən zərər çəkmişin dindirilməsini və s.-ni aid etmək olardı.

Bu məsələ üzərində təsadüfi olaraq ətraflı dayanmadıq. Son zamanlarda, şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi probleminin xüsusi aktuallığı ilə əlaqədar cinayət-prosessual hüququn bəzi nəzəriyyəçiləri əsassız olaraq təhlükəsizlik tədbirləri dairəsini genişləndirməyə çalışırlar ki, bu da göstərilən problemin həllinin effektivliyinə kömək etmir.

Daha sonra cinayət prosesi iştirakçılarının təhlükəsizliyinin təmin edilməsinin məhkəmə baxışı zamanı istifadə edilən əsas cinayət-prosessual tədbirlərinə nəzər salaq.

Bu halda təhlükəsizliyin təmin edilməsinin effektiv tədbirlərindən biri məhkəmə baxışının qapalı keçirilməsi hesab olunur. Bu təhlükəsizlik tədbiri “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində təsbit edilmişdir. O cümlədən, bu maddədə qeyd edilir ki, qanunvericiliklə müəyyən edilmiş qaydada müdafiə olunan şəxsin iştirak etdiyi hallarda məhkəmə baxışının qapalı keçirilməsi təhlükəsizlik tədbiri hesab olunur. Lakin AR CPM-in “Cinayət mühakimə icraatının aşkarlığı” prinsipini təsbit edən 27-ci maddəsində göstərilir ki, AR CPM-də nəzərdə tutulmuş dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır. Beləliklə, cinayət prosesi iştirakçılarının təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi və mümkünlüyü qapalı məhkəmə iclaslarının aparılmasının əsası kimi birbaşa bu normada göstərilmir.

Fikrimizcə, bu hal qanunvericilikdə boşluq hesab edilməlidir. Bolqarıstan (maddə 97a), Estoniya (maddə 17.2-ci hissə), Rusiya (maddə 241) kimi bəzi ölkələrin CPM-də təhlükəsizliyin təmin edilməsi qapalı məhkəmə baxışının keçirilməsinin əsası kimi birbaşa göstərilmişdir. Bir sıra müəlliflərin əsərlərində göstərilən qanun müddəası nəzəri cəhətdən əsaslandırılmışdır.[11]

Cinayət prosesi iştirakçılarının təhlükəsizliyinin təmin edilməsinin zərurət yarandıqda qapalı məhkəmə iclaslarının keçirilməsinin mümkünlüyü beynəlxalq hüquqi normaların təhlilindən də ortaya çıxır. Məsələn, “Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt”ın 14-cü maddəsində göstərilmişdir ki, “demokratik cəmiyyətdə mətbuat və ictimaiyyət əxlaq, ictimai asayiş, yaxud dövlət təhlükəsizliyi mülahizələrinə görə, yaxud tərəflərin şəxsi həyatlarının mənafeyi tələb etdikdə, yaxud məhkəmənin fikrincə ciddi zərurət olduqda – açıq məhkəmənin ədalət məhkəməsini poza biləcəyi xüsusi hallarda – məhkəmə

---

[11] Bax: Məsələn, Ворожцев С. Обеспечение процессуальной безопасности потерпевшего и свидетеля // Рос. юстиция, 1996, №11, с.25; Безнасюк А., Абабков А. Государственная защита лиц, содействующих уголовному судопроизводству // Рос. юстиция, 1997, №8, с.40; Леви А.А. К копросу об особенностях и правах свидетеля в уголовном процессе // Правоведение, 2000, №1, с.157.

baxışına bütövlükdə, yaxud onun bir hissəsinə buraxılmaya bilər".

Bununla əlaqədar AR CPM-in 27.1-ci maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirik: "Bu məcəllədə nəzərdə tutulmuş dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla, yaxud əgər bunu məhkəmə baxışı iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi maraqları tələb edirsə, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır".

Cinayət prosesi nəzəriyyəsi və praktikasında təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə hərəkətlərinin aparılmasına yol verilməsi problemi mübahisəli məsələlərdən hesab edilir.

Əvvəllər qeyd edildiyi kimi, qanunverici AR CPM-in 326.9-cu maddəsində cinayət təqibi ilə bağlı olan halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri olan hallarda məhkəmənin əsaslandırılmış qərarı əsasında təqsirləndirilən şəxsin digər təqsirləndirilən şəxs olmadan dindirilə bilməsi imkanını nəzərdə tutmuşdur. AR CPM-in 328.8-ci maddəsinə müvafiq olaraq, həmçinin yetkinlik yaşına çatmamış şahid məhkəmə iclasında təqsirləndirilən şəxsin iştirakı olmadan dindirilə bilər. Beləliklə, qanunverici təqsirləndirilən şəxsin cinayət prosesinin digər iştirakçılarının dindirilməsində iştirak etmək hüququ barədə ümumi qaydadan istisnaları göstərmişdir.

Bu məsələ üzrə cinayət-prosessual ədəbiyyatında vahid fikir yoxdur. Bəzi müəlliflər təqsirləndirilən şəxsin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası"nın 6-cı maddəsində təsbit edilən "onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq" hüququna istinad edərək təklif edirlər ki, bu halda istisnalara yol verilməməlidir.[12]

Digər tədqiqatçılar hesab edirlər ki, şahidlərin və zərər çəkmiş şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə məhkəmə iclasında təqsirləndirilən şəxsin iştirakı olmadan onların dindirilməsi mümkündür. Bu zaman konkret işlər üzrə Avropa Məhkəməsinin qərarlarına, habelə insan hüquqları üzrə Avropa Komissiyasının müstəsna hallarda müdafiəçisi qalmaq şərti ilə məhkəmə zalından təqsirləndirilən şəxsin çıxardılması müddəasına istinad edirlər.[13]

Bu zaman müəlliflər çox vaxt Danimarkada və bəzi digər

---

[12] Bax: Петрухин И.Л. Защита лиц, содействующих правосудию // Рассказывают адвокаты. М., 2000, с.235-242; Трухачев В.В. Принципы криминалистической деятельности, направленной на предупреждение и разоблачение сокрытия преступлений // Расследование преступлений: вопросы теории и практики. Воронеж, 1997, с.42; Турчин А.Д. Против анонимного правосудия (заметки на полях одного законодательного проекта) // Социально-экономические и правовые проблемы восточно-сибирского региона на пороге третьего тысячилетия. Иркутск, 1998, с.47.

[13] Брусницын Л.В. Обеспечение безопасности лиц, содействующих уголовному правосудию: российский, зарубежный и международный опыт 20 века. С.210; Зайцев О.А. Государственная защита участников уголовного процесса. М., 2001, с.124-125.

Avropa ölкələrində məhкəmələr tərəfindən yol verilən oxşar hərəкətlərin təcrübəsinə istinad edirlər.[14]

Fiкrimizcə, sübutların təqsirləndirilən şəxs tərəfindən bilavasitə qəbul edilməsi qaydasından кənara çəкilməni əкs etdirən istisnaların mövcud olmaq hüququ vardır. Bəzi hallarda şahidlərin və zərər çəкmiş şəxslərin qorxudulması o qədər güclü olur кi, onlardan təqsirləndirilən şəxslərin iştiraкı ilə gerçəк ifadələr almaq çox çətin olur, bəzən isə heç mümкün olmur. Xüsusilə, bu, yetкinliк yaşına çatmamış şahidlərin qorxudulması halına aiddir. Yetкinliк yaşına çatmamış şəxslərin psixiкası qorxudulmaya кəsкin reaкsiya verir кi, bu da onların mühüm psixi zədəyə məruz qalmasına gətirib çıxara bilər. Təsadüfi deyil кi, məsələn Almaniya CPM-nin 241-ci maddəsinə müvafiq olaraq 16 yaşına qədər şahidlərin dindirilməsini yalnız iş üzrə sədrliк edən həyata кeçirir. Beləliкlə, sübutların təqsirləndirilən şəxs tərəfindən bilavasitə qəbul edilməsi qaydası istisna edilmədən belə hallarda iş üzrə qanuni və əsaslandırılmış höкm çıxarmaq mümкün olmur.

İttiham olunan şəxsin iştiraкı olmadan şahidlərin dindirilməsi imкanı müxtəlif üsullarla təmin edilir. Məsələn, belə növ dindirmələrin üsullarından biri xüsusiyyətləri əvvəllər nəzərdən кeçirilmiş distansion dindirmə hesab edilir. Digər üsul müdafiə olunan şəxsin haкimlərdən biri tərəfindən məhкəmə iclasından кənarda dindirilməsi və alınan ifadələrin sonradan elan edilməsi hesab olunur. Belə təcrubə, məsələn, Niderlandda mövcuddur.[15]

İsveçrədə, müstəsna hallarda azyaşlıların dindirilməsi zamanı məhкəmə baxışı zalından кənarda məhкəmənin yazılı suallarına zərər çəкmiş şəxsin və ya şahidin cavabları şəкlində dindirmədən istifadə edilir.[16]

Fiкrimizcə, yetкinliк yaşına çatmamış şahidlərin və zərər çəкmiş şəxslərin təhlüкəsizliyini təmin etməк məqsədilə müstəsna hallarda şahid və zərər çəкmiş şəxsin məhкəmə iclasında iştiraкı olmadan məhкəməyədəк icraat zamanı həmin şəxslərin ifadələrinin, məlumatlarının səsləndirilməsi, habelə səsyazılarının, həmin ifadələrin video və кinoçəкilişlərin nümayişi mümкündür.[17]

Belə qərarın qəbul edilməsi üçün AR CPM-də müəyyən hüquqi əsas vardır. AR CPM-in 329.1-ci maddəsinə əsasən, şahid tərəfindən məhкəməyədəк icraat, davam edən məhкəmə baxışı

---

[14] Bax: Хвертенберг Д. Вопросы соблюдения прав человека в связи с применением мер поощрения лиц, содействующих уголовному судопроизводству, и мер обеспечения их защиты // Зарубежный опыт правового регулирования по вопросам защиты участников уголовного судопроизводства и практика его применения. М., 2000, с.162-163.

[15] Bax: Так П.Й. Система уголовного правосудия в Нидерландах в свете новой уголовной политики. Вестник Московского университета. 1997, №1, с.66.

[16] Bax: Heine G. Zur Recht und Praxis des Spangstelds von Zeugen im schweizerischen straf-verfhren // Schweizerische Zeitshhrift fur strafrecht / Bern, 1992, / Bd. 109, h.1, s.60.

[17] Göstərilən nöqteyi-nəzər bir sıra müəlliflər tərəfindən dəstəklənir. Məsələn, bax: Основы борьбы с организованной преступностью / Под ред. В.С.Овчинского, В.Е.Эминова, Н.П.Яблокова. М., 1996, с.273; Брусницын Л.В. Обеспечение безопасности потерпевших и свидетелей. Законность, 1997, №1, с.38.

zamanı əvvəllər keçirilmiş məhkəmə iclasında və ya cari məhkəmə iclasında verilmiş ifadələrin şahidin məhkəmə iclasında iştirakı olmadan elan edilməsinə, habelə həmin ifadələrin audio yazısının səsləndirilməsinə, video və ya kino çəkilişinin göstərilməsinə yalnız şahidin məhkəmə baxışına gəlməsini istisna edən səbəblərə görə, həmçinin AR CPM-in 327.1-ci maddəsində nəzərdə tutulmuş digər hallarda yol verilir.

Beləliklə, məhkəmədə təqsirləndirilən şəxs tərəfindən sübutların bilavasitə dərk edilməsi qaydasının qanunvericiliklə məhdudlaşdırılması təcrübəsini bütövlükdə qanunauyğun hesab etmək lazımdır.

Eyni zamanda AR CPM-in 326.3, 328.8 və 329-cu maddələrinin dəqiqləşdirilməsinə ehtiyac vardır. Qanunverici təqsirləndirilən şəxsin iştirakı olmadan cinayət prosesi iştirakçılarının dindirilməsinin əsası kimi cinayət təqibi ilə bağlı halların hərtərəfli, tam və obyektiv tədqiqinin zəruriliyini qeyd edir. Bu əsas formuləsi konkret deyildir, o, praktiki olaraq hər bir iş üzrə təqsirləndirilən şəxsin iştirakı olmadan cinayət prosesi iştirakçılarının dindirilməsinin aparılması haqqında qərar qəbul etməyə imkan verir.

Fikrimizcə, bu halda təqsirləndirilən şəxsin hüququnun konkret təminatı qanunda aşağıdakı müddəaların təsbit edilməsi olacaqdır: 1) təqsirləndirilən şəxsin iştirakı olmadan dindirilmələrin aparılması müstəsna xarakteri daşımalıdır; 2) təqsirləndirilən şəxsin iştirakı olmadan cinayət prosesi iştirakçılarının dindirilmələrinin aparılması, yaxud göstərilən şəxslərin ifadələrinin məhkəmə iclasına çağırılmadan elan edilməsi üçün əsas həmin şəxslərin təhlükəsizliyinin təmin edilməsi zəruriliyi hesab olunur.

Ədəbiyyatda və ədalət mühakiməsi orqanlarının təcrübəsində mübahisə predmeti anonim şəxslərin məhkəmə baxışında iştirak etməsi imkanı hesab olunur. “Şahidlərin qorxudulması və müdafiə hüququnun təmin edilməsi məsələləri üzrə Avropa Şurası Nazirlər Komitəsi №R (97)13 tövsiyələrinə Əlavə”yə müvafiq olaraq, anonimlik o deməkdir ki, şahidin eyniləşdirmə məlumatları heç bir halda təqsirləndirilən şəxsə bildirilmir. Daha sonra,bu tövsiyədə göstərilmişdir ki, harada mümkündürsə, bu milli qanunvericiliklə razılaşdırılmalıdır, ifadə verən şəxsin anonimliyi kimi belə tədbir müstəsna tədbir kimi tətbiq edilə bilər. Əgər belə şəxs anonimliyə təminat tələb edirsə və ya anonimlik səlahiyyətli orqan tərəfindən müvəqqəti təmin edilmişsə, milli qanunvericilik cinayət mühakimə icraatının məqsədləri və təqsirləndirilən şəxsin hüquqları arasında balansa riayət etmək məqsədilə yoxlama prosedurunu nəzərdə tutmalıdır.

Bu prosedur müvafiq olaraq müdafiə tərəfinə şahidin anonimliyinin saxlanılması zəruriliyinə etiraz etmək, şahidin ifadələrinə və təqdim etdiyi məlumatların alınma mənbəyinə inamı şübhə altına almaq hüququ verilməlidir.

Əgər şahidin işi üzrə anonimlik təmin edilmişsə, onda bu

halda ittiham hökmü müstəsna olaraq belə şəxsin ifadələrinə əsaslanmamalıdır.

Beləliklə, bu sənəddən görünür ki, cinayət mühakimə icraatında anonim şəxslərin iştirak etməsi imkanına çox ehtiyatla yanaşılmalıdır.

Cinayət mühakimə icraatı zamanı şahidlərin və zərər çəkmiş şəxslərin anonimliyi mümkündür, lakin bu heç bir halda məhkəməyə şamil edilməməlidir. Belə vəziyyətdə, cinayət prosesi iştirakçısının şəxsiyyəti barədə məlumatların hətta məhkəmədən gizli saxlanılması haqqında Almaniya qanunvericisinin mövqeyi ilə razılaşmaq çətindir. Məhkəmə məhz kimin ona ifadə verdiyini hökmən bilməlidir. Bunsuz istənilən şəxsin ifadəsini yol verilən sübut kimi tanımaq olmaz. Şübhəsiz, bu zaman əvvəllər xatırladılan – əgər iş üzrə şahidin anonimliyi təmin edilmişsə, onda ittiham hökmü müstəsna olaraq belə şəxsin ifadəsinə əsaslana bilməz – tövsiyəsinə dönmədən əməl edilməlidir.

Bu zaman RF CPM-nin 278-ci maddəsində aşağıdakı müddəaları təsbit edən Rusiya qanunvericisinin təcrübəsindən istifadə etmək olar: şahidin, onun yaxın qohumlarının, qohumlarının və yaxın şəxslərinin təhlükəsizliyinin təmin edilməsi zərurəti yarandıqda məhkəmə, şahidin şəxsiyyəti barədə əsil məlumatları elan etmədən, məhkəmə baxışının digər iştirakçıları tərəfindən şahidin vizual müşahidəsini istisna edən şəraitdə onun dindirilməsini aparmaqda haqlıdır, lakin bu barədə məhkəmə qərar çıxarmalıdır.

Təqsirləndirilən şəxsin müdafiəsinin həyata keçirilməsinin və ya cinayət işinə baxılması üçün hansısa mühüm halı müəyyən etmək zərurəti ilə əlaqədar ifadə verən şəxs barədə həqiqi məlumatların açıqlanması haqqında tərəflərin əsaslandırılmış vəsatətləri olduqda məhkəmə tərəflərə göstərilən məlumatlarla tanış olmaq imkanı yaratmaqda haqlıdır.

**УГОЛОВНО-ПРОЦЕССУАЛЬНЫЕ МЕРОПРИЯТИЯ В ОБЕСПЕЧЕНИИ БЕЗОПАСНОСТИ ЛИЧНОСТИ В УГОЛОВНОМ ПРОЦЕССЕ**

**М.С.КАФАРОВ**

**РЕЗЮМЕ**

В современном периоде в контексте обеспечения прав и свободы человека в уголовном процессе, связанный с существуюшей нормативной юридической базой обеспечения прав личности, привлекает ещё большего внимания состояния этого механизма.

В статье, наряду с мероприятиями обеспечения защиты прав и свободы личности в уголовном процессе, исследуются также законодательства зарубежных стран.

В проведенном исследовании выделены на первый план решение проблем безопасности участников в уголовном процессе, в том числе и защита их профессиональных и коммерческих тайн в рыночном переходе.